www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-13 (1796) 15 iyul 2024-cü il




# 2024-cü il məzunlarının təntənəli buraxılış gecəsi keçirilib

**Rektor, professor Gəray Gəraybəyli: 6 il öncə ATU-ya daxil olmuş tələbələr bu gün bütöv və suveren Azərbaycanın həkimləri kimi həyata atılır**

səh. 2-3

## Malayziya universitetinin professoru COP29 hazırlıqları çərçivəsində mühazirə oxuyub

səh. 4

## Yer kürəsinin 40%-ə qədər əhalisi müxtəlif allergenlərdən əziyyət çəkir

səh. 7

## Məzunlar 50 ildən sonra auditoriyada

səh.5




## ATU ilə ADNSU arasında memorandum imzalanıb

Tələbələr və gənc tədqiqatçılar üçün yeni imkanlar yaradılır

səh. 4

## Arıqlamaq üçün istifadə olunan tabletlər ciddi fəsadlara yol açır

*Professor Musa Qəniyev: Bu preparatlar piylənmə və artıq çəkinin qarşısının alınmasında əsas müalicə vasitəsi deyil*

səh. 5

## "Siqaretçəkmənin zərəri havanın çirklənməsindən daha çoxdur"

*Kafedra müdiri deyir ki, hazırki siqaretlərin toksiki təsiri əvvəllər istifadə olunan tənbəkidən qat-qat yüksəkdir*

səh. 6



## Rektor Oftalmologiya şöbəsinin təmirdən sonrakı açılışında iştirak edib

Görülən işlər tibbi xidməti daha da təkmilləşdirəcək

səh. 4

# 2024-cü il məzunlarının təntənəli

## Rektor, professor Gəray Gəraybəyli: 6 il öncə ATU-ya daxil olmuş tələbələr









**Gəncliyin ən dolğun, ən parlaq, ən ülvi, ən kövrək və ən şirin anları tələbəlik illərinin payına düşür. Tələbəlik illərinin ən unudulmaz səhifələrindən biri isə yaddaşlarda “Məzun günü” kimi qalan ali məktəb həyatının son akkordlarıdır. Tələbə oxuduğu illər ərzində yaxşı anlayır ki, ali məktəbi başa vurandan sonra müstəqil həyata qədəm qoyacaq, məqsədlərinə çatmaq üçün inamlı addımlar atacaq. Təcrübə də göstərir ki, bilikli və savadlı məzun qarşılaşdığı bütün problemləri anındaca aradan qaldırmaq və dəf etmək gücündə olur. Onlar həm də zamanın sınaqlarından keçərək əsl vətəndaş kimi yetişirlər.**

**Elə bu inam və tanınmış teleaparıcı Saleh Bağırovun moderatorluğu ilə iyunun 25-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının həyətində tibb tələbələrinin “Məzun günü” təntənəli şəkildə qeyd olunub.**

Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə tanınmış ictimai-siyasi xadimlər, səhiyyə işçiləri və digər qonaqlar iştirak ediblər.

### “Həkimlər gündəlik həyatın qəhrəmanlarıdır”

İlk olaraq təbrik nitqi ilə çıxış edən səhiyyə naziri Teymur Musayev “Məzun günü”nün gələcəyin həkimlərinin yaddaşında gözəl bir tarix kimi qalacağını bildirib: “Bügünkü tədbirdə iştirakınızın arxasında gərgin zəhmət, yuxusuz gecələr və təhsilə olan sonsuz həvəsiniz dayanıb. Universitetdə qazandığınız bilikləri gələcəkdə artıracağınıza, öyrənmək həvəsinizin həmişə sizinlə olacağına inanıram. Tibb Universiteti öz layiqli məzunları ilə fəxr edir, burada təhsil almış və dərs demiş görkəmli şəxsiyyətlərin şanlı ənənələrini yaşadır. Universitetin hər buraxılışı səhiyyəmiz və təbabətimiz üçün əlamətdar hadisədir. Bu il həm də “Fizioterapiya və tibbi reabilitasiya”, “Tibb bacısı işi” ixtisaslarından ilk buraxılışdır. Azərbaycanın ilk ali məktəblərindən biri olan, ənənələri ilə tarixə söykənən Tibb Universiteti onilliklərdir səhiyyə ocaqları üçün yüksək ixtisaslı həkim kadrları yetişdirir, tibb elminin tərəqqisinə mühüm töhfələr verir. Yeni təhsil standartlarına əsaslanıb müasir informasiya texnologiyalarından istifadə edərək beynəlxalq akkreditasiyadan keçən bu qocaman tibb təhsili ocağı tədris proqramlarına uyğun yüksək ixtisaslı mütəxəssislər hazırlayır. Təsadüfi deyil ki, bu ilin noyabr ayında Bakıda keçiriləcək COP29 tədbiri çərçivəsində “İqlim dəyişikliyinin sağlamlığa təsiri” mövzusu universitetdə tədris olunan İctimai sağlamlıq və səhiyyənin təşkili fənninin proqramına daxil edilib”.

Təbrik nitqində xarici ölkələrin aparıcı təhsil müəssisələri ilə beynəlxalq əlaqələrə də toxunan nazir, ATU-nun ilk dəfə olaraq "Times Higher Education Impact Ranking"in reytinq cədvəlində yer aldığını xüsusi qeyd edib.

Nazir hər bir dövlətin inkişafı yolunda və uğurlarının arxasında xalqına, vətəninə bağlılığı olan tarixi şəxsiyyətlərin dayandığını vurğulayıb: “Müstəqil dövlətçilk tariximizdə hər sahədə olduğu kimi, səhiyyənin və tibb təhsilinin inkişafı da Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider əhalinin sağlamlığının qorunmasını, səhiyyənin tərəqqisini, maddi-texniki bazasının möhkəmləndirilməsini ölkə siyasətinin prioritet məsələlərindən biri hesab edirdi. O həmçinin, yeni tibb müəssisələrinin açılması istiqamətində zəruri addımlar atırdı. Bu tibb təhsili ocağının məzunu olan görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanı da Azərbaycan Tibb Universiteti ilə qırılmaz tellər bağlayırdı. Təbabət elminə və tibb təhsilinə böyük töhfələr verən Zərifə xanımın tələbələri, onun məktəbinin davamçıları yeni həkim kadrları və tibb alimləri hazırlığı sahəsində əzmlə çalışırlar”.

Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə əhalinin sağlamlığının qorunması sahəsində böyük nailiyyətlərin əldə olunduğunu xatırladan nazir, son illər tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirildiyini diqqətə çatdırıb: “Səhiyyənin maliyyələşdirilməsində köklü islahatlar aparılır, rəqəmsallaşma, keyfiyyətli tibbi xidmət istiqamətində işlər görülür.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, ixtisasca həkim olan Mehriban xanım Əliyeva da səhiyyə sahəsində çalışanlara həmişə diqqət və qayğı göstərir, tibb işçilərinin əməyini və fədakarlığını daim yüksək qiymətləndirir”.

Səhiyyəmizin yenilənməsi sahəsində aparılan islahatların tibb təhsilinin qarşısında daha yüksək tələblər qoyduğunu söyləyən nazir, bu baxımdan indiki məzunların üzərinə böyük məsuliyyət düşdüyünü deyib: “İnanıram ki, siz bu məsuliyyəti düzgün dərk edəcək və gələcək fəaliyyətinizlə etimadı doğruldacaqsınız. Səhiyyəmizin sizə, Azərbaycanın sağlam gələcəyi naminə şərəfli missiyaya qoşulacaq gənclərə, yaradıcı qüvvələrə böyük ehtiyacı var. Təbabətimizin sabahkı inkişafı əhəmiyyətli dərəcədə məhz bugünkü tələbələrdən və məzunlardan asılıdır. Ona görə deyə bilərik ki, milli səhiyyəmizin tərəqqisinə çalışan insanların sıraları daha da genişlənir. Mən bu münasibətlə məzunları, onların valideynlərini, bütün səhiyyə ictimaiyyətini, Tibb Universitetinin professor-müəllim heyətini təbrik edirəm! Əziz məzunlar, bir həmkar kimi aramıza xoş








# buraxılış gecəsi keçirilib

## bu gün bütöv və suveren Azərbaycanın həkimləri kimi həyata atılır

gəldiniz. Şübhəsiz ki, hər birinizin gələcəklə bağlı planlarınız var. Qorxmadan, çəkinmədən arzularınızın, istəklərinizin, tələblərinizin arxasınca gedin. Özünüzə inanın, yorulmadan çalışın, öyrənin. Həkimlər gündəlik həyatın qəhrəmanlarıdır. Bu çətin qəhrəmanlıq yolunda sizə uğurlar, sağlamlıq, xoşbəxtlik, firavanlıq diləyirəm. Yolunuz açıq olsun".

### "Məzun olan gənclərin tələbəlik illəri taleyüklü hadisələrlə zəngin olub"

Tələbələri və onların valideynlərini təbrik edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli bu əlamətdar günü hamımızın, ilk növbədə isə məzunların bayramı kimi səciyyələndirib.

Rektor indi məzun olan gənclərin tələbəlik illərinin asan keçmədiyini, ölkəmiz üçün taleyüklü hadisələrlə zəngin olduğunu bildirib. Bu illər ərzində həm dünyanı bürümüş virusla mübarizə, onlayn təhsil, həm də 44 günlük Vətən müharibəsi sayəsində Zəfər tariximizi yaşadığımızı xatırladıb: "Siz 6 il bundan əvvəl orta məktəbdən ayrılıb ilk dəfə Azərbaycan Tibb Universitetinin auditoriyalarına, dərs otaqlarına, palatalara daxil olaraq özünüzü həkimlik kimi mürəkkəb və vacib bir peşəyə həsr etməyə başlamısız. Altı il öncə siz tələbə bileti alarkən torpaqlarımızın 20 faizdən çoxu işğal altında idi. Diplom aldığınız gün isə bütövləşmiş və tam suveren Azərbaycanın həkimləri kimi məzun olursunuz. Bu hər birimiz üçün böyük şərəfdir. Ötən 6 il ərzində müəllimləriniz, professor-müəllim heyəti daim yanınızda olub. Artıq bu gündən sonra sizi sərbəst, müstəqil həkimlik fəaliyyəti gözləyir".

Gənclərin himayədarı olmuş Ümummilli Lider Heydər Əliyev tərəfindən bilikli, sağlam düşüncəli yeni nəslin yetişdirilməsi üçün ciddi addımlar atıldığını vurğulayan rektor, bu gün də təhsilin inkişafının dövlət siyasətinin əsas prioritetlərindən biri elan edildiyini söyləyib: "Bu gün də Müzəffər Ali Baş Komandan, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycan böyük addımlarla inkişaf edir. Bütün sahələrdə olduğu kimi, səhiyyə, tibb elmi sahəsində də böyük islahatlar aparılır. Bu islahatların praktik həyatda reallaşdırılması vəzifəsi həm də sizin üzərinizə düşür. Sevindirici haldır ki, ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında siz də daxil olmaqla gənclərin iştirakına xüsusi diqqət yetirilir".

Təbrik çıxışında müstəqil həkim kimi fəaliyyətə başlayacaq məzunlara uğurlar arzulayan rektor G.Gəraybəyli, onları ATU-nun məzunu adını hər yerdə, hər zaman uca tutmağa çağırıb.

### Məzunlar təntənəli şəkildə həkim andı içiblər

Tədris departamentinin rəhbəri, dosent Kamandar Yaqubov 2024-cü il məzunlarına həkim adının verilməsi haqqında rektorun müvafiq əmrini oxuyub və universiteti bitirən məzunların statistikasını açıqlayıb.

Onun sözlərinə görə, tədris ilində Azərbaycan Tibb Universitetinin 1189 nəfər məzunu olub. Onlardan 813 nəfəri Azərbaycan vətəndaşı, 376 nəfəri əcnəbilərdir. I Müalicə-profilaktika fakültəsindən 316, II Müalicə-profilaktika fakültəsindən 327, "Tibbi profilaktika" ixtisasından 44, "Fizioterapiya və tibbi reabilitasiya" ixtisasından 38, "Tibb bacısı işi" ixtisasından isə 31 nəfər məzundur. Eyni zamanda, universiteti "Stomatologiya" ixtisası üzrə 227, "Əczaçılıq" ixtisası üzrə 117, "Hərbi həkim" ixtisası üzrə 40, "Hərbi feldşer" ixtisası üzrə 39, ilk buraxılış olan "Hərbi stomatologiya" ixtisası üzrə isə 10 nəfər bitirib.

Tədbirdə təhsilini fərqlənmə ilə bitirən gələcəyin həkimlərinə diplomlar təqdim olunub. Diplomları səhiyyə naziri Teymur Musayev və ATU-nun rektoru Gəray Gəraybəyli təqdim ediblər. Həmçinin İctimai səhiyyə fakültəsinin yeni yaradılmış "Fizioterapiya və tibbi reabilitasiya", eləcə də "Tibb bacısı işi" ixtisası üzrə ilk buraxılışı olan 69 məzuna medallar təqdim olunub.

Sonra məzunlar təntənəli şəkildə həkim andı içərək xalqımızın sağlamlığının keşiyində ləyaqətlə duracaqlarına söz veriblər.

I Müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirən Nilufər Tağızadə və Türkiyə Cümhuriyyətinin vətəndaşı Mahsum Ağırman isə məzunlar adından çıxış edərək həkimlik fəaliyyətlərində də müəllimlərinin etimadını doğrultmağa çalışacaqlarını söyləyiblər.

Məzunlara 6 il dərs demiş müəllimlərin zəhmətini qiymətləndirmək də yaddan çıxmayıb. Məzun tələbələr arasında keçirilmiş sorğunun nəticələrinə görə "Ən yaxşı müəllim" adına layiq görülənlər mükafatlandırılıb.



### 1974-cü ilin məzunu 2024-cü ilin məzunlarını təbrik edib

Bundan sonra təbrik üçün söz Onkologiya kafedrasının dosenti Nəsimi Qasımova verilib. O, 50 il bundan öncə Azərbaycan Tibb Universitetini bitirmiş məzunların İnsan anatomiyası və tibbi terminologiya kafedrasının mühazirə zalında keçirilmiş görüşü ilə bağlı təəssüratlarını bölüşüb. Ən xoş arzularını dilə gətirərək 1974-cü il məzunlarının salam və təbriklərini 2024-cü ilin məzunlarına çatdırıb və universitetin rektoru, professor G.Gəraybəyliyə xatirə hədiyyəsi təqdim edib.

Bayram ovqatlı "Məzun günü" tədbirinin rəsmi hissəsi ATU-nun Himninin oxunması və Hərbi tibb fakültəsi müdavimlərinin əzəmətli marşın sədaları altında nizami keçidi ilə başa çatıb.

Qısa fasilədən sonra bədii proqramla davam edən tədbirdə məzun tələbələrimiz tanınmış sənət adamları ilə eyni səhnəni paylaşıblar. Adı həmişə Əminə Dilbazi ilə qoşa çəkilən, əfsanəvi rəqqasənin davamçısı Nisəxanım Rəhimovanın bədii rəhbərliyi altında fəaliyyət göstərən məşhur "Çinar" rəqs ansamblının üzvləri isə milli rəqslərimizi məharətlə ifa edərək tamaşaçılara zövqlü anlar yaşadıblar.






**Arif MƏMMƏDLİ**
**Qabil ABDULLAYEV**







# Rektor Oftalmologiya şöbəsinin təmirdən sonrakı açılışında iştirak edib

**Azərbaycan Tibb Universitetinin klinikalarında tibbi xidmətin keyfiyyətinin artırılması istiqamətində ardıcıl şəkildə tədbirlər həyata keçirilir. Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsinin əsaslı şəkildə təmir olunması da bu qəbildəndir.**




Universitetimizin rektoru, professor Gəray Gəraybəyli Oftalmologiya şöbəsinin təmirdən sonrakı açılışında iştirak edərək, görülən işlər və burada yaradılan şəraitlə tanış olub. O, xəstəxana və tibb müəssisələrinin əsaslı təmirinin əhaliyə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsinə imkan yaratdığını bildirərək, bu işdə şöbənin kollektivinə uğurlar arzulayıb.

Klinikanın Oftalmologiya şöbəsinin müdiri, dosent Qurban İsmayılov təmir çərçivəsində görülən işlər haqqında danışıb. Burada bütün otaqların yüksək səviyyədə təmir olunduğunu, əməliyyatxananın şəraitinin tam yeniləndiyini bildirib. Bundan əlavə, şöbənin göz xəstəliklərinin müalicəsi və müayinəsində tətbiq edilən müasir avadanlıq və zəruri inventarla təchiz edildiyini söyləyib: "Əməliyyatxanamız müasir cihazlarla təchiz edilərək istifadəyə hazır vəziyyətə gətirilib. Bundan əlavə, ümumilikdə 8 otaq həm təmir olunub, həm də şöbənin maddi-texniki təchizatı yaxşılaşdırılıb. Tibbi avadanlıqla yanaşı, şöbənin fəaliyyəti üçün zəruri olan infrastruktur da yenilənib. Görülən işlər son nəticədə fəaliyyətimizi daha da təkmilləşdirməyə imkan yaradır".

Qeyd edək ki, tanınmış cərrah Qurban İsmayılovun təşəbbüsü ilə hər il müəyyən kateqoriyalı xəstələr, aztəminatlı ailələr, tələbələr, şəhid və qazi ailələrinin üzvləri üçün aksiyalar keçirilir, ödənişsiz göz əməliyyatları icra olunur. Peşəkar həkim briqadası ilə seçilən Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsi əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində fəaliyyətini davam etdirir.

# I Neyrotologiya elmi-praktik simpoziumu keçirilib

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında universitetin Qulaq, burun, boğaz xəstəlikləri kafedrası ilə Türkiyənin Beynəlxalq Səhiyyə Təhsili və Araşdırmaları Dərnəyinin (USEAD) birgə təşkil etdiyi I Neyrotologiya elmi-praktik simpoziumu keçirilib.**



Dövlət Himnimizin səsləndirilməsi ilə başlayan simpoziumu adıçəkilən kafedranın müdiri, professor Vəfa Pənahian açaraq, bu elmi tədbirin Azərbaycanda ilk dəfə keçirildiyini, oftalmoloq, nevroloq, psixiatr və psixoloqların vestibulyar patologiyaya aid çıxışlarının olacağını, həmçinin audioloqların öz praktik və elmi təcrübələrini bölüşəcəyini vurğulayıb. Tədbirin keçirilməsinə hərtərəfli şərait yaratdığına görə rektor, professor Gəray Gəraybəyli başda olmaqla universitet rəhbərliyinə təşəkkürünü bildirən kafedra müdiri, iki bölüm üzrə maraqlı müzakirələrin aparılacağına əminliyini ifadə edib.

Simpoziumun açılışında çıxış edən Tədris Cərrahiyyə Klinikasının direktoru, dosent Əsədulla Sultanov ilk növbədə qonaqları salamlayıb və elmi araşdırmaların həmişə böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Eyni zamanda hər bir elmi nailiyyətin praktikada tətbiq olunması, həmkarlar arasında fikir mübadiləsinin aparılması baxımından müştərək elmi-praktik konfransların xüsusi önəm daşıdığını söyləyib.

USEAD-ın rəhbəri, professor Selim Sermet Erbek və simpozium həmsədri, Loğman Həkim Universiteti Eşitmə, Müvazinət və Danışma Mərkəzinin koordinatoru, professor, neyrotoloq Hatice Seyra Erbek də çıxış edərək qardaş ölkə mütəxəssisləri ilə bir arada olmaqdan məmnunluqlarını diqqətə çatdırıblar. Bildiriblər ki, əsas məqsəd audiologiya və vestibulologiya sahəsində fəaliyyət göstərən, müxtəlif müəssisələrdən gəlmiş mütəxəssislərin öz təcrübələri, tətbiq etdikləri yenilik və dəyişikliklərlə bağlı məlumatları, tədqiqat nəticələrini bölüşməsi, eyni zamanda bu sahələrin tədrisi ilə bağlı yeniliklərin müzakirəsini aparmaqdan ibarətdir.

Daha sonra simpozium öz işini iki bölümdə davam etdirib. Audiologiya bölümü üzrə professor Hatice Seyra Erbek, uzman dr. Yaqub Kazımov, audioloq Ləman Məmmədova, həkim-audioloq Mehman Əliyev və otorinolarinqoloq Afaq Şadlinskaya, vestibulologiya bölümü üzrə isə otorinolarinqoloq Sara Ağalar, nevroloq Şəhla Mehdiyeva, oftalmoloq Leyda Kazımova, psixiatr Gülay Məmmədzadə və başqalarının məruzələri böyük maraqla qarşılanıb.

Simpozium sual-cavab sessiyası ilə yekunlaşıb.

**İyulun 2-də Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) ilə Azərbaycan Tibb Universiteti (ATU) arasında memorandumun imzalanma mərasimi keçirilib.**



# ATU ilə ADNSU arasında memorandum imzalanıb

## Tələbələr və gənc tədqiqatçılar üçün yeni imkanlar yaradılır

Tədbirdən öncə qonaqlar Azərbaycan-Fransız Universitetində (UFAZ) olub, tədris auditoriyaları və laboratoriyalarla tanış olublar.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilib və Dövlət Himni səsləndirilib.

Açılış nitqi ilə çıxış edən ADNSU-nun rektor əvəzi, dosent Vazeh Əskərov qonaqları salamlayaraq, ATU ilə tərəfdaşlıq üçün atılan addımı yüksək qiymətləndirib və əlaqələrin inkişaf etdirilməsinin önəmindən danışıb.



ADNSU-nun dünya universitetləri arasında yüksək reytinq tutması, eləcə də tədqiqat universitetinə çevrilməsi istiqamətində görülən işlərdən danışan V.Əskərov beynəlxalq və yerli təhsil müəssisələri ilə əməkdaşlığın, innovasiyaların tətbiqinin hər iki universitet üçün mühüm əhəmiyyət kəsb etdiyini deyib, əməkdaşlığın yeni mərhələsinin uğurlu olacağına əminliyini bildirib.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli səmimi qarşılanmaya görə təşəkkürünü bildirərək, birgə əməkdaşlığın hər iki tərəf üçün əhəmiyyətindən söz açıb.

Memorandumun tələbələr və gənc tədqiqatçılar üçün yeni tədqiqat imkanları açacağını, həmçinin birgə startap ideyalarının, elmi-tədqiqat işlərinin, tədris proqramlarının yerinə yetirilməsinə öz töhfəsini verəcəyini deyib. Sonra memorandum imzalanıb.

Qeyd edək ki, ATU-nun Əczaçılıq fakültəsinin tələbələri xeyli müddətdir ki, ADNSU-nun laboratoriyalarında praktika keçirdilər. Bu memorandumun imzalanması ilə sözügedən fəaliyyət də rəsmiləşmiş olub.

# Peyvəndlər milyonlarla insanın həyatını xilas edib

**İyulun 1-də Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Vaksinasiyaya dəstək" layihəsi çərçivəsində ATU-nun Fizika-kimya korpusunda Səhiyyə Nazirliyi, ATU və Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyinin dəstəyi ilə "Araşdırmadan reallığa: Peyvəndin elmi əsası və təbliğatı" adlı tədbir keçirilib.**



Tədbirin əvvəlində Dövlət Himnimiz səsləndirilib və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Qonaqları salamlayan ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri, Tədris Terapevtik Klinikanın Uşaq sağlamlığı və xəstəliklər şöbəsinin müdiri Qoşqar İsmayılov tədbirin gələcək həkimlər üçün əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, peyvəndləmə prosesi əhalinin sağlamlığının qorunmasında böyük rol oynayır, məhz peyvənd sayəsində difteriya, qızılca, parotit və digər ağır xəstəliklərin qarşısı alınıb, milyonlarla insanın həyatı xilas edilib.

ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan səhiyyəsinin inkişafına böyük diqqət yetirirdi. Məhz bunun sayəsində ölkəmizə təhlükəli xəstəliklərə qarşı peyvəndlər gətirilib. Bu addımlar qısa müddət ərzində öz bəhrəsini verib. Prorektor təəssüflə qeyd edib ki, ölkəmizin əhalisinin bir hissəsi peyvəndə şübhə və qorxu ilə yanaşır. Bu problemi düzgün maarifləndirmə işi ilə aradan qaldırmaq lazımdır.

ÜST-ün Azərbaycandakı nümayəndəliyinin vaksinlə idarə olunan və infeksion xəstəliklər bölməsinin rəhbəri Sevinc Həsənova ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə tədbirin təşkilində dəstəyinə görə təşəkkürünü bildirib. O, ÜST-ün peyvəndləmə prosesi ilə bağlı apardığı fəaliyyət haqqında geniş məlumat verib. S.Həsənova qeyd edib ki, insanları peyvənd haqqında düzgün məlumatlandırmaq hər bir həkimin borcudur.

Bundan sonra tanınmış ekspertlər peyvəndin əhəmiyyətinə dair məruzələr təqdim ediblər. Konfransda 250-yə yaxın tələbə iştirak edib.

Məlumat üçün bildirək ki, tədbir Genişlənmiş İmmunizasiya Proqramının 50-ci ildönümünə həsr olunub. Bu proqram 1974-cü ildə ÜST tərəfindən başladılıb. Proqramın ilkin hədəfi 6 xəstəliyin qarşısının alınması idi: difteriya, göyöskürək, tetanus, polio, qızılca və məxmərək. Ötən 50 ildə proqram əhəmiyyətli dərəcədə genişlənib, yeni peyvəndlər hazırlanıb və nəticədə milyonlarla ölüm, əllik hallarının qarşısı alınıb.

# Malayziya universitetinin professoru COP29 hazırlıqları çərçivəsində mühazirə oxuyub



**BMT-nin İnkişaf Proqramı və Avropa Komissiyasının birgə təşəbbüsü olan "Kapuçinski İnkişaf Mühazirələri" (Kaptalks) Azərbaycan Tibb Universiteti ilə tərəfdaşlıq çərçivəsində "Mürəkkəb dünyada necə yaşamalı: planetar sağlamlıq çıxış yolu kimi" mövzusunda seminar təşkil edib.**

Tədbirdə Malayziyanın Sanvey Universitetinin Planetar Sağlamlıq Mərkəzinin icraçı direktoru, professor Jemilah Mahmood mühazirə ilə çıxış edib. İnteraktiv formatda keçən mühazirədə insan riskləri, xüsusilə iqlim dəyişikliyinin səbəb ola biləcəyi səhiyyə böhranı, onunla mübarizə və digər mövzular müzakirə olunub.

Professor yoluxucu xəstəliklərin daha asan yayılmasına münbit şərait yaradan münaqişələr, ərzaq təhlükəsizliyi və yerdəyişmə hallarının insanların immun sistemlərini daha da zəiflətdiyini vurğulayıb. O qeyd edib ki, hazırda humanitar sistemlər böhranlara cavab tədbirlərinin planetar sağlamlığa zərər verməməsi və uzunmüddətli perspektivdə risk və həssaslığı gücləndirməməsi üçün əlavə təzyiq və məsuliyyətlə üz-üzədir.

Səhiyyə və təhsil sahəsi üzrə mütəxəssislər, ekspertlər, alimlər, tələbələr, o cümlədən dövlət orqanlarının nümayəndələri və diplomatların iştirak etdiyi, hibrid formatda təşkil olunmuş mühazirə bu il Bakıda keçirilməsi planlaşdırılan COP29 konfransına hazırlıqlar çərçivəsində baş tutub.

Qeyd edək ki, tədbirdən öncə Jemilah Mahmood ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərovla görüşüb. Görüşdə BMT İnkişaf Proqramının kommunikasiyalar üzrə məsul şəxsi Ceyhun Ələkbərov, ATU-nun İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin müdiri Aygün Babayeva, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov iştirak edirdilər.

# Məzunlar 50 ildən sonra auditoriyada

## 1974-cü ildə Tibb İnstitutunu bitirmiş həkimlər doğma universitetdə toplaşıb

**1974-cü ilin günəşli yay səhəri... Həmin gün çöhrələri nurlu, arzuları işıqlı gənclər "Məzun günü"nün təbrik sədaları altında çətin və şərəfli bir yola çıxdılar. Universitet həyatına əlvida deyib, xalqımızın sağlamlığı naminə arzularını çin etməyə getdilər.**

Düz 50 il sonra - 2024-cü il iyunun 28-də yubilyar məzunlar yenə kövrək, həm də sevincli idilər. Azərbaycan Tibb Universitetinin 1974-cü il buraxılış məzunları əvvəlcə doğma universitetin həyatında ölkəmizin müstəqilliyi və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş həkim və tələbələrimizin xatirə kompleksini ziyarət edərək, gül dəstələri düzüblər.

Tədbir III saylı tədris korpusunun auditoriyasında davam etdirilib. Dövlət Himni səsləndirildikdən sonra şəhidlərin, eləcə də dünyasını dəyişmiş müəllim və məzunların xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev məzunları universitet rəhbərliyi adından salamlayıb və onları yenidən doğma məkanda görməkdən məmnun olduğunu bildirib. Sözünə davam edən prorektor məzunlara və qonaqlara ATU-nun son illərdəki fəaliyyəti və uğurları barədə məlumat verərək, tələbələrin yaxşı təhsil alması üçün yaradılmış şəraitdən danışıb. S.Əliyev qeyd edib ki, bu gün Tibb Universiteti öz fəaliyyətini dövrün çağırışlarına uyğun qurur və Avropanın tələb etdiyi bütün meyarlara tam cavab verir. ATU-nun nəzdində 4 tədris klinikasının fəaliyyət göstərdiyini deyən prorektor, bu klinikaların ən müasir standartlara cavab verdiyini bildirib və son illərdə universitetə başa vuran məzunlarımızın dünyanın qabaqcıl elm-təhsil müəssisələrində çalışdığını vurğulayıb.





Tədbirdə çıxış edən İnsan anatomiyası və tibbi terminologiya kafedrasının məsləhətçi professoru, Prezident təqaüdçüsü Vaqif Şadlinski dövlətimizin səhiyyəyə xüsusi diqqət və qayğısından söhbət açaraq, vaxtilə universitetdə təhsil alan gənclərin əksəriyyətinin bu gün ölkəmizdə müxtəlif vəzifələr tutan, müəyyən mövqeyə malik ixtisaslı, tanınmış peşəkar kadrlar olduğunu bildirib.

Görüşün əsas təşəbbüskarı, həmçinin təşkilatçılarından biri olan Onkologiya kafedrasının dosenti Nəsimi Qasımov tədbirin təşkilinə görə universitet rəhbərliyinə və dəstək olan hər kəsə təşəkkürünü bildirib. O, görüşə hazırlaşarkən, eləcə də məzunları soraqlayarkən keçirdiyi hisslərdən söz açıb. Qeyd edib ki, bu indiyədək məzunlarla keçirilən dördüncü görüşdür (20, 30, 40 və 50-ci ildönümləri). N.Qasımov məlumat verib ki, görüşdə universitetin I və II Müalicə-profilaktika, Pediatriya, Sanitariya və gigiyena fakültələrinin 1974-cü il məzunları iştirak edir.

Sonra məzunlar bir-bir söz alaraq həzin-kövrək xatirələrini bölüşüblər. Azərbaycan Respublikasının sabiq deputatı Mirhəmzə Əfəndiyev, SSRİ Ali Sovetinin sabiq deputatı Nəzakət Sadıqova, əməkdar müəllim, dosent Rəşid Mahmudov, əməkdar həkim Şəfa Əliyev, professorlar Surxay Hadıyev, İsfəndiyar İsmayılov, Cabbar Hacıyev, Valeh Mirzəzadə, Akif Sultanov, Mirzə Kazımov, Arif Mirzəyev, o cümlədən onlayn şəkildə Sona Əsgərova, Qazax rayondan uşaq həkimi Roza Qocamanova, Şəkidən uşaq cərrahı Maarif Əliyev, həmçinin Sankt-Peterburq şəhərindən İ.İ.Canielidze adına təcili yardım elmi-tədqiqat institutunun baş elmi işçisi, cərrahi blokun rəhbəri Ümidvar Ələkbərov çıxış edərək ürək sözlərini çatdırıb, bu ənənənin gələcəkdə də davam etdirilməsinin gənc nəslə örnək olacağını söyləyiblər. Məzunlar sevimli müəllimlərini xatırlayaraq onların tələbkarlığından, bilikli və vicdanlı şəxsiyyət kimi daim xatirələrdə yaşayacaqlarından bəhs ediblər. Onlar bu tarixi görüşün təşkil edilməsinə dəstək olanlara və eləcə də məzunlara bu şəraiti yaradan universitet rəhbərliyinə, xüsusilə ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə dərin təşəkkürlərini bildiriblər.

Rəsmi hissə başa çatdıqdan sonra məzunlar restoranda toplaşaraq, bu xoş günün sevincini bölüşüb, xatirə şəkilləri çəkdiriblər.

**M.ƏLƏKBƏRLİ**

**ATU-nun Farmakologiya kafedrasının müdiri, professor Musa Qəniyev arıqlamaq məqsədilə nəzarətsiz dərman qəbulunun ağır fəsadlara və hətta ölümə səbəb ola biləcəyini söyləyib.**

# Arıqlamaq üçün istifadə olunan tabletlər ciddi fəsadlara yol açır



### Professor Musa Qəniyev: Bu preparatlar piylənmə və artıq çəkinin qarşısının alınmasında əsas müalicə vasitəsi deyil

O bu məqsədlə istifadə olunan dərmanların orqanizmə təsirinin bir çox qaranlıq məqamlarına aydınlıq gətirib: "Əsasında 90% nisbətində baş beyində özünənəzarət və tənqid mexanizminin supressiyası duran kökəlmə (piylənmə) - hipotalamusun ön, orta və yan nüvəsi (toxluq və aclıq mərkəzi) arasında əlaqə və tənzim mexanizminin pozulması nəticəsində baş verir. Bu halın mərkəzi mexanizmlərin disfunksiyası ilə bağlılığını artıq çəkidən əziyyət çəkən şəxsə yemək yeyərkən "çox yemə, sənə olmaz" dedikdə, onun əksinə, daha çox yeməsi, aqressivləşməsi və sair bir daha təsdiq edir.

Odur ki, irsi və ya hormonal faktorla bağlı məhdud nisbətdə 5% meydana çıxan piylənmə və ya çəki artıqlığı istisna olmaqla, effektiv müalicə yalnız mərkəzi tənzim mexanizmlərin disbalansının farmakoloji korreksiyası istiqamətində aparılan terapiyadır. Başqa sözlə, hazırda tövsiyə, təbliğ və istifadə olunan, sayı gündən-günə həndəsi silsilə artan preparatlar və qida əlavələri piylənmə və ya artıq çəkinin qarşısının alınmasında əsas müalicə vasitəsi deyil".

Sözünə davam edən M.Qəniyev bildirib ki, arıqlamaq üçün tövsiyə olunan preparatlar ya anoreksigen (iştahı azaltmaq), ya piyi əritmək, ya da sorulmanın qarşısını almaqla, işlədici və ya sidikqovucu təsir göstərərək bu prosesi təmin edir: "Bu qruplardan olan hər bir potensial aktiv preparat təkrari və nəzarətsiz qəbulda çox ciddi fəsadlara yol aça, hətta insan ölümünə səbəb ola bilər. İştahı azaldan dərmanların əsas tərkib komponenti subutramindir. Baş beyində aclığa həssas strukturları süstləşdirməklə iştahı azaldır və tədricən mədə kiçilməsinə səbəb olur. Fenilalkilamin (amfetamin) törəməsi olduğuna görə, ürək fəaliyyəti və ruhi sferada ciddi pozğunluq törədə, hətta psixoza səbəb ola bilər. Müalicə kursu fəsadsız başa çatsa belə, sonrakı dövrdə iştaha nəzarət hissi aradan qalxır. Bu isə daha güclü çəki artımına səbəb olur.

Piyi əridən preparatlar- L-Karnitin, LipoCensin təsiri yağların parçalanmasını sürətləndirməsilə əlaqədardır. Adi halda orqanizm artıq piyi təbii yolla kənarlaşdırır və yağın balans nisbətini özü tənzimləyir. Preparat müdaxiləsi isə insulinə rezistentlik, ürəyin kəskin işemik xəstəliyi, pankreatit, hətta peroksisomal pozğunluqlar kimi çox qorxulu irsi patologiyaya səbəb ola bilər.

Yağların mənimsənilməsinin qarşısını alan preparatlar - Orlistat, Ksenikol və s. zəruri qida maddələrinin sorulmasının da qarşısını alır. Uzunmüddətli qəbulda bu hal orqanizmin tükənməsinə səbəb ola bilər. Qəflətən və kəskin klinik əlamətlərlə meydana çıxan tükənmə halı, adətən dərman müdaxiləsinə dözümlülük göstərərək faciə ilə sona çatır.

Diuretiklər piy toxumasına birbaşa təsir göstərmir. Yalnız lipid hüceyrələri və toxumalardan suyu kənarlaşdırmaqla çəkini azaldır. Bu halda orqanizmdə olan minerallar - kalsium, kalium, natrium və s. xaric olur ki, bu da ağır nəticələrə səbəb ola bilər. Müalicə kursu uğurla başa çatsa belə, pozulmuş su balansı sürətlə bərpa olunur və xəstə müalicədən öncəki çəkisinə qayıdır".

Arıqlama məqsədilə istifadə olunan işlədicilərdən danışan professor vurğulayıb ki, bioloji aktiv qida əlavələri dərman preparatı deyil və onların klinik tədqiqatları aparılmayıb. Bu səbəbdən də orqanizmə müsbət və ya mənfi təsiri haqqında elmi məlumat yoxdur. Təbii ki, bu maddələrin sayının fantastik dərəcədə çox olması yalnız marketinq maraqlarına xidmət edir.

# "Startap və Marketinq" təlim kursu başa çatıb

**29 may-28 iyun tarixlərində Stomatologiya fakültəsində "Startap" layihəsi çərçivəsində "Startap və Marketinq" təlim kursu keçirilib.**



Kursun 4-cü həftəsinin "Stomatologiyada startapın maliyyə aspektləri" mövzusuna uyğun "Startapın biznes planlaşdırılması və maliyyə modeli" adlı mühazirə ADNSU-nun Rəqəmsal inkişaf və innovasiya mərkəzinin rəhbəri Aysel Sadıqova tərəfindən oxunub. İştirakçılar məruzəçiyə suallar verib, mövzu ətrafında diskussiya aparılıb.

Layihənin baş koordinatoru dosent Ayət Cəfərova yeni təlimlərin proqramı haqqında məlumat verib, həmçinin növbəti tədris ilində digər fakültələrdə təlim kurslarının təşkil olunacağını qeyd edib.

Tədbirin sonunda iştirakçı və təşkilatçılara sertifikatlar təqdim olunub.

# Yoluxucu xəstəliklər kafedrasının 16 rezidenti seminarda çıxış edib

**ATU-nun Yoluxucu xəstəliklər kafedrasında tədris hissə müdiri, dosent Vüqar Cavadzadənin təşkilatçılığı ilə "Yoluxucu xəstəliklərin aktual problemləri" mövzusunda rezidentlərin növbəti seminarı keçirilib.**





Tədbiri açan kafedranın müdiri, dosent Cəlal İsayev bu seminarların rezidentlərin mütəxəssis kimi yetişməsində əhəmiyyətli rol oynadığını bildirib. Qeyd edib ki, kafedrada rezidentlərə lazimi şərait yaradılıb və daim onlara kuratorları, eləcə də professor-müəllim heyəti tərəfindən dəstək göstərilir.

Sözünə davam edən C.İsayev vurğulayıb ki, hazırda ölkədə qızılca, suçiçəyi, qarayara və s. infeksiyalara az da olsa rast gəlinir, bu infeksiyaların diaqnozu, müalicəsi və profilaktikasını rezidentlərin dərindən mənimsəməsi olduqca vacibdir.

Daha sonra 16 nəfər I kurs rezident yoluxucu xəstəliklər fənninin ümumi hissəsinə aid mövzular üzrə çıxışlar edib. Çıxışlardan sonra mövzu ətrafında geniş diskussiyalar aparılıb, verilən suallar məruzəçilər tərəfindən cavablandırılıb.

Kafedra müdiri C.İsayev və rezidentlərin rəhbərləri - dosentlər Ələsgər Vəliyev, Mirzamin Muxtarov, Elza Orucova, Şəmsə Rəşidova, Gülnarə İbrahimova, Sulduz Əhmədova, Reyhan Bəylərova, Könül Cəfərova, Samir Məmmədov və assistent Məlahət Bağırova rezidentlərin fəal, çalışqan olduqlarını, elmə böyük maraq göstərdiklərini nəzərə çatdırmaqla yanaşı, onlara öz irad və tövsiyələrini də bildiriblər.

**Bu günlərdə Azərbaycan Tibb Universitetinin "Təbib" nəşriyyatında universitetin Epidemiologiya və biostatistika kafedrasının müdiri, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, Əməkdar müəllim İbadulla Ağayevin təşəbbüsü və gərgin əməyi sayəsində Göyçə mahalında yaşayıb-yaradan, tanınmış şairlərdən biri olan Zodlu Abdullanın əsərlərindən ibarət kitab işıq üzü görüb. Kitabın redaktoru "Təbib" qəzetinin əməkdaşı Qabil Zimistanoğludur.**





# Göyçəli şairin əsərlərindən ibarət kitab işıq üzü görüb

İyunun 29-da Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin Göygöl rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə kitabın təqdimetmə mərasimi keçirilib.

Əvvəlcə Dövlət Himnimiz səsləndirilib, Ulu Öndər Heydər Əliyev və şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Mədəniyyət Mərkəzinin direktoru Əminə Rəhimova qonaqları salamlayaraq, tədbiri açıq elan edib. O, XIX-XX əsrlərdə yaşayan, "Zodlu Abdulla", "Usta Abdulla" kimi el arasında məşhur olan şairin həyat və yaradıcılığı, onun keçdiyi ağrılı-acılı ömür yolu, professor İbadulla Ağayevin kitabın araya-ərsəyə gəlməsində apardığı araşdırmalar, çəkdiyi zəhmət barədə tədbir iştirakçılarına ətraflı məlumat verib. Kitabın abdullasevərlərə və aşıqlarımıza əvəzsiz hədiyyə olduğunu diqqətə çatdırıb.

Professor İ.Ağayev tədbir boyu ustadın bənzərsiz poeziya nümunələrindən misallar çəkib, şairin başına gələn maraqlı əhvalatlardan danışıb.

Texnika elmlər doktoru, Azərbaycan Dövlət Aqrar Universitetinin professoru Şahlar Babayev, Göygöl rayonu üzrə təhsil sektorunun baş məsləhətçisi Salman Qaralar (Balakişiyev), ziyalılardan Vilayət Hacıyev, Azad Haqverdiyev, Niftalı Quliyev, Vahid Hacıyev, jurnalist Qabil Zimistanoğlu və digər çıxışçılar şairin yazdığı şeirlərdən nümunələr səsləndirib, onların tarixindən söhbət açıblar.

Şairin şeirlərini böyük həvəslə oxuyan aşıqlar bənzərsiz ifaları ilə tədbirə özünəməxsus rəng qatıblar.

Sonda şairin nəticəsi Ə.Rəhimova və nəslinin digər nümayəndələri kitabda zəhməti keçənlərə və tədbir iştirakçılarına minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Usta Abdulla (Namazov Abdulla Rəhim oğlu) 1865-ci ildə qədim Göyçə mahalının Basarkeçər rayonunun Zod kəndində anadan olub. Buna görə ona el arasında "Zodlu Abdulla", dülgərlik və xarratlıqla məşğul olduğu üçün isə həm də "Usta Abdulla" deyiblər.

Sənətkar 1918-20-ci illərdə Göyçədə erməni daşnaklarının soydaşlarımıza qarşı törətdiyi vəhşilik və soyqırımların şahidi olur, hamı kimi doğma Zod kəndini tərk edir. Köçkünlük həyatı zamanı çəkdiyi əzab-əziyyətlər və məhrumiyyətlər onun yaradıcılığına təsirsiz ötüşmür.

**Yazır:**

*Dağıldı mahalım, pozuldu elim,*
*Tükəndi dövlətim, gödəldi dilim,*
*Əyildi qamətim, büküldü belim,*
*Nə qazamat, nə qalalar çəkmişəm.*

1943-cü ildə 78 yaşında dünyasını dəyişən şair öz vəsiyyətinə uyğun olaraq Gəncədə, İmamzadə kompleksində dəfn olunub.

# Dədə-baba torpaqlarına qayıtmaq hər bir zəngəzurlunun arzusudur

**2024-cü il iyunun 20-dən 22-nə qədər Naxçıvan şəhərində Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə "Qərbi Azərbaycana qayıdış konsepsiyası" kontekstində festival-konqres keçirilib. Qərbi azərbaycanlıların yüksək əhval-ruhiyyəsi ilə yadda qalan bu tədbirdə ATU-nun İctimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev də iştirak edib.**



Onun Zəngəzur mahalının Nüvədi kəndinin mədəni abidələri barəsində çıxışı maraqla qarşılanıb. Qədim Zəngəzurun cənubunda yerləşən Nüvədi kəndinin bir tərəfdən Araz çayı, digər tərəfdən Zəngilan rayonu ilə həmsərhəd olduğunu xatırladan natiq bildirib ki, Araz boyu 20 km və şimala doğru 25 km məsafədə çox qədimlərdən türk tayfaları məskunlaşıb: "Bu ərazidə xristianlığa və albanlara, eləcə də ermənilərə aid heç bir məbədə və ya abidəsinə rast gəlmək mümkün deyil. Kəndimizin ərazisi gələcək Zəngəzur dəhlizinin xeyli hissəsini əhatə edir. Bu ərazilərdə qədimdən türk tayfaları olan zəngilər yaşayıblar və Zəngəsur və Zəngilan sözləri də məhz həmin ifadədən qaynaqlanır. Orta əsrlərdə yaranan mədəni abidələrdən biri olan Baba Hacı (Babək Hacı) məqbərəsi, Sultan Səlim məqbərəsi, Buğkar (Buğukar) ziyarətgahı, Abdul ata piri və digər çoxsaylı abidələr mövcud idi. Ən qədim zamanlarda qarqarlara aid yazı nümunələri də daşlar üstündə həkk olunmuşdur. Çoxsaylı nümunələrlə təsdiq etmək olar ki, bu torpaqlarda qədim və orta əsrlərə aid heç bir erməni və Qrıqoryan kilsəsinin izi olmamışdır".

Kənd əhalisinin bir neçə dəfə erməni təqibləri ilə üzləşərək İrana köç etdiyini və sonradan öz dədə-baba yurdlarına qayıtdığını xatırladan professor Q.Əliyev qeyd edib ki, nüvədililər öz torpağına, vətəninə çox ürəkdən bağlı camaatdır: "Kəndin sakinləri 1988-ci ildən başlayaraq erməni təcavüzünə sinə gərdilər və xeyli zaman duruş gətirib dədə-baba torpaqlarını müdafiə etdilər. Bu gün Qərbi Azərbaycan icmasının qayıdış konsepsiyasının vəzifələri hər bir kənd sakininin qəlbində geniş yurd salıb və ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin hər an çağırışına hazır olduqlarını bəyan edərək öz ata-baba torpaqlarına sahib çıxmaq əzmindədirlər".

Q.Əliyev çıxışı zamanı onu da vurğulayıb ki, Ulu Öndərimiz Heydər Əliyev keçmiş SSRİ-nin rəhbərliyində təmsil olunarkən Bakı-Naxçıvan yolunun açılması üçün böyük işlər görmüşdü. Məhz həmin dövrdə Bakıdan Nüvədi kəndinə qədər asfalt yol çəkilmişdir. Lakin sonradan nankor qonşular bu yolun açılaraq Naxçıvana qədər davam etməsinə maneçilik törətdilər: "Amma bu arzu hər bir zəngəzurlunun qəlbindədir və onun açılması üçün bütün fədakarlıqlara hazırıq".

# ATU Gəncədə regional konfrans keçirib



Azərbaycan Tibb Universiteti Azərbaycan Endouroloji Cəmiyyəti ilə birlikdə Gəncə şəhərində regional konfrans keçirib. Konfransda Azərbaycan Tibb Universitetinin Urologiya kafedrasının müdiri, professor Rauf Nağıyev, kafedranın əməkdaşları dosent Fikrət Əhmədov, assistent Anar Əhədov və rezident Anar Nəcəfov məruzələrlə çıxış ediblər.

Tədbir çərçivəsində ATU-nun rezidentləri və gənc həkimlər üçün "Karl Ştort" şirkətinin dəstəyi ilə simulyator kursu təşkil olunub. Daha sonra ilk dəfə olaraq Gəncə Beynəlxalq Xəstəxanasından toplantı salonuna canlı endoskopik uroloji əməliyyat translyasiya edilib. Konfransa Gəncə və qonşu rayonlardan 50-yə yaxın həkim qatılıb.

# Əməkdaşımız beynəlxalq konqresdə çıxış edib



Azərbaycan Tibb Universitetinin Yoluxucu xəstəliklər kafedrasının professoru, Lökbatan Tibb Mərkəzinin direktoru, tibb elmləri doktoru Elçin Hüseynov bu yaxınlarda Çexiyanın Praqa şəhərində keçirilmiş "Virusologiya və yoluxucu xəstəliklər" mövzusunda 3-cü Ümumdünya Konqresində (WVID 2024) iştirak edib.

Alim konqresdə "Azərbaycan Respublikasında kəskin bruselyozun xüsusiyyətləri" mövzusunda təqdimatla çıxış edib. Məruzə Azərbaycanda kəskin bruselyozlu 120 xəstənin ətraflı epidemioloji, klinik və immunoloji xarakteristikası əsasında aparılan tədqiqatların nəticələrinə həsr olunub. Təqdimat iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

Elçin Hüseynov konqresin gedişində müxtəlif ölkələri təmsil edən tanınmış alim, həkim, elm və səhiyyə təşkilatçıları ilə görüşlər keçirib, bu görüşlərdə birgə tədqiqat imkanları və sahələri, ortaq maraq doğuran məsələlər müzakirə edilib.

**ATU-nun Ağciyər xəstəlikləri kafedrasının müdiri, dosent Rafiq Bayramov yerli televiziya kanallarına geniş müsahibə verib. O, müsahibəsində ətraf mühitin çirklənməsi dolayısı ilə ağciyər xərçənginə gətirib çıxarması ilə bağlı suala da aydınlıq gətirib.**

# "Siqaretçəkmənin zərəri havanın çirklənməsindən daha çoxdur"

**Kafedra müdiri deyir ki, hazırki siqaretlərin toksiki təsiri əvvəllər istifadə olunan tənbəkidən qat-qat yüksəkdir**

Bildirib ki, havanın çirklənməsi ağciyərlərin, bronxların, ümumilikdə tənəffüs orqanlarının zədələnməsində və müxtəlif xəstəliklərin, o cümlədən ağciyər xərçənginin yaranmasında əsas faktordur. Amma onun sözlərinə görə, insan orqanizmi üçün siqaretçəkmənin zərəri havanın çirklənməsindən daha çoxdur: "Havanın çirklənməsi pnevmokonioz dediyimiz peşə toz xəstəliyinin yaranmasına səbəb ola bilir. Eyni zamanda insanın uzun müddət çirkli hava ilə nəfəs alması ağciyər xərçənginin yaranmasında da əsas faktorlardan biridir. Əhalinin sıx yaşadığı şəhərlərdə havanın vahid həcmində olan toz hissəciklərinin, xüsusilə də kiçik, 3 monometrə qədər olan hissəciklərin ağciyərlərin daha dərinliklərinə, yəni kiçik tənəffüs, bronx yollarına qədər getməsi və onları zədələməsi geridönməz dəyişikliklərin yaranmasına səbəb olur. İstər maşın tüstüsü, istərsə də sənaye müəssisələrinin fəaliyyəti nəticəsində havaya buraxılan zərərli qarışıqlar, tikinti işləri zamanı əmələ gələn toz hissəcikləri nə qədər çox olarsa, bu, insanların tənəffüs orqanlarına, ağciyərlərə bir o qədər mənfi təsir göstərər. Həmçinin siqaretin ağciyərə çirkli havadan daha zərərli olmasını mütləq söyləməliyəm. Çünki insan təmiz hava şəraiti olan mühitdə yaşasa belə, əgər tütünçəkmədən istifadə edirsə, həm özünün, həm də istifadə etdiyi tüstünün tərkibindəki qarışıqların ətrafa yayılması nəticəsində başqalarının sağlam tənəffüs hüququ pozulur. Beləliklə, ağciyər xərçəngi və son dövrlərdə çox rast gəlinən, ağciyər toxumasının sərtləşməsi kimi tanınan İdiopatik Pulmoner Fibroz (İPF) xroniki ağciyər xəstəliyinə tutulma riski artır. Bütün dünyada, eləcə də ölkəmizdə sürətlə artan, ölüm göstəricisinə görə 3-4-cü yerdə dayanan, interstisial ağciyər xəstəlikləri içərisində daha aktual olan idiopatik ağciyər fibrozunun ilkin və başlıca yaranma səbəbi də tütünçəkmədir".



Ekoloji təmizliyin, havanın çirklənməsinin qarşısını almağın vacibliyini, ancaq siqaretçəkmənin daha ciddi problem olduğunu vurğulayan həkim-ftiziopulmonoloq təəssüflə qeyd edib ki, dövlət rəhbərliyi səviyyəsində qərarların verilməsinə, ictimai yerlərdə siqaret çəkməyin qadağan edilməsinə və müəyyən cərimələrin tətbiqinə baxmayaraq, insanlarımız arasında bu zərərli vərdişdən istifadə edənlərin sayı hələ də kifayət qədərdir. Son dövrlərdə oğlan tələbələrlə yanaşı, qız tələbələr arasında siqaret çəkənlərin çoxaldığını da təəssüf hissi ilə xatırladan və bunu dünyanın hansısa ölkəsinin xanımlarına bənzəmək cəhdi kimi dəyərləndirən dosent R.Bayramov onu da diqqətə çatdırdı ki, siqaretin bəzən stressə müsbət təsir göstərməsi haqda yayılan fikirlər də yanlışdır. Siqaret çəkmək nəinki stressi aradan qaldırmır, əksinə, stressin orqanizmə neqativ olan təsirlərini birə-beş artırır. Bundan əlavə, hazırda istifadə olunan siqaretin tərkibində tütündən başqa istənilən kimyəvi maddə var və bu maddələrin toksiki təsiri əvvəllər istifadə olunan tənbəkinin təsirindən qat-qat yüksəkdir.

**İnsan orqanizmində əsasən qoruyucu funksiyaya malik dərinin sağlamlığı həmişə diqqət mərkəzində olub. Xüsusilə yaz-yay mövsümündə dəri ilə bağlı suallar aktuallaşır. Bu barədə Oxu.Az-a müsahibə verən Azərbaycan Tibb Universitetinin I Müalicə-profilaktika fakültəsinin dekanı, dermatovenerolog Elşad Novruzov ilk növbədə bizim üçün həyat mənbəyi olan Günəşin insan orqanizminə mənfi və müsbət təsirlərindən danışıb.**

# O xal nə xaldır, qoşa düzdürmüsən...

## Dosent Elşad Novruzov Günəş şüaları, dəridə xallar və botoks barədə danışıb

O, Günəş şüalarının D vitamininin sintezinə yardımçı olduğunu, kalsium tarazlığını təmin etdiyini, insanın psixologiyasına müsbət təsir göstərdiyini, depressiyanın qarşısını aldığını və gecə yuxusunu yaxşılaşdırdığını xatırladıb. Bununla belə, Günəş şüalarının mənfi təsirinə də diqqət çəkərək qeyd edib ki, A ultrabənövşəyi şüaları dərinin alt qatına sirayət edərək onun tez qırışmasına, qocalmasına gətirib çıxarır. B şüaları isə dəri səthində piqmentləşməyə, ləkələrin əmələ gəlməsinə, çilləşməyə səbəb olur. Hətta bədənimizdə sonradan yaranan və anadangəlmə adi xalları bədxassəli xala da çevirə bilir. Ona görə də bilmək lazımdır ki, Günəş şüalarının xeyri olduğu qədər də zərəri var. Ondan düzgün istifadə etmək, əndazəni aşmamaq şərtdir.

Bu tarazlığın necə qorunmasına toxunan həkim-dermatovenerolog bildirib ki, bəzi ədəbiyyatlarda səhər vaxtı saat 10-a, bəzilərində 11-ə qədər, axşam isə 4-dən sonra Günəş altında gəzməyin xeyirli olduğu yazılır. Amma axşamüstü Günəş şüaları daha faydalıdır. Təəssüf ki, bizdə insanların əksəriyyəti dəniz mövsümündə çimərliyə günortadan gedirlər. Nəticədə dərilərində yanıqlar əmələ gəlir.

Mütəxəssisin sözlərinə görə, Günəşdən qorunmaq üçün müxtəlif SPF (Sun Protection Factor - red.) kremləri dəri tipinə uyğun olaraq seçilməlidir: "Bəzən insanları üz dərisində olan qabıq yanıldır. Dəridə qabığın olması onun quru tip olması demək deyil. O qabıq yağlı dəridə də ola bilər. Ona görə də dərinin tipi həkim tərəfindən müəyyən edilməlidir. Çünki əgər dəri yağlıdırsa, ona su əsaslı SPF, əgər quru dəridirsə, yağ əsaslı SPF lazımdır. Bundan başqa, SPF kremlərinin bəziləri ancaq B, bəziləri ancaq A, bəziləri isə A və B şüalarından qoruyur. Bunların da fərqi var. İnsanlar, təəssüf ki, aptekdəki satıcının verdiyi SPF-i alırlar. Amma bu, əslində, həkim məsləhəti ilə olmalıdır".

Dosent E.Novruzov onu da vurğulayıb ki, dəri törəməsi hesab edilən xallar forması, rəngi və s. əlamətləri baxımından narahat olmaq üçün əsas ola bilər. Məsələn, qısa müddət ərzində böyüyən xaldan şübhələnmək lazımdır. Əgər bir xal on il varsa və doqquz il olduğu kimi qalıb, amma son bir ildə qəfil böyüyübsə, o zaman da həkimə müraciət etmək vacibdir.



Həmçinin xalda qanaxmaya meyillilik, qaşınma, göynəmə varsa, müayinə olunmağa ehtiyac var. Həm də xal bir rəngdə olmalıdır. Xalın rəngində başqa rəngin çalarları artıq şübhə doğurur və belə hallarda həkimə müraciət etməyə zərurət yaranır.

El arasında "ala-tala xəstəliyi" adlanan vitiliqo xəstəliyindən bəhs edən həkim melanin hüceyrələrinin dəriyə rəng verdiyini və dəridə eyni nisbətdə yayıldığını söyləyib: "Amma bəzi insanlarda dərinin məhdud yerlərində görürsən ki, rəng itir. Müayinə etsək, həmin yerdə melanin hüceyrələrinin olmadığını və ya öldüyünü görəcəyik. Vitiliqonun universal, məhdud, yayılmış kimi formaları var. Məhdud forma istənilən yerdə və istənilən ölçüdə, yayılmış növü üz nahiyəsində olur. Universal forması isə tükdən tutmuş, bütün bədəni əhatə edir və dərinin hər yerində ağarma baş verir. Məsələn, dünya pop kralı Maykl Ceksonda da vitiliqonun universal forması olub. O vaxt deyirdilər ki, guya qaradərili olduğu üçün ona ağ dəri köçürülüb. Xeyr, onda vitiliqo xəstəliyi vardı. Eyni şeyi bədənin müəyyən nöqtələrində tökülən tüklər barədə də deyə bilərik. Bədənin məhz həmin nöqtəsi elə bilir, tük ona aid deyil və atır. Biz bunu həmin yerdə immuniteti azaltmaqla müalicə edirik. Yəni immunitet azalır və onun tükü bədəndən atmağa gücü çatmır".

E.Novruzov son dövrlərdə xanımların, elə bəylərin də gəncləşmək, üz dərilərinin hamar və gözəl görünməsi üçün botoksdan geniş şəkildə istifadə etdiyini deyib. Onun fikrincə, bu zaman bəzi nüanslara diqqət yetirilməlidir: "Bizdə əksər insanlar daha ucuz olan yerə üstünlük verir və özlərini müəyyən yalanlarla aldadırlar (məsələn, filan yerdə kampaniya idi, ancaq məhsulun pulunu ödədim, filankəs mənim tanışımdır, mənə endirim etdi və s.). Bunu bilmək lazımdır ki, botulinum toksin və ya hamının tanıdığı botoksun qalıcılıq müddəti beş aydan başlayır və mütəmadi edilərsə, arta-arta gedir. Amma birinci istifadədə 12 ay qalıbsa, deməli, bu botoksun qatqısı var və o, keyfiyyətsizdir. Lakin bu cür halda pasiyentlər şübhələnmirlər. Əksinə, həkimin daha yaxşı və peşəkar olduğunu, guya daha keyfiyyətli məhsullardan istifadə etdiyindən vurduğu botoksun daha qalıcı olduğunu düşünürlər. Prosedur peşəkar həkim tərəfindən yerinə yetirildiyi və keyfiyyətli botoksdan istifadə olunduğu halda onun heç bir ziyanı yoxdur. Onun işi müvəqqəti olaraq həmin yerin innervasiyasını dondurmaqdır. Bir müddətdən sonra açılır və öz işini davam etdirir. Botoks təkcə gözəl görünmək üçün deyil, həm də miqren ağrılarında geniş istifadə olunur. Nəticəsi də yaxşıdır. Bilirik ki, miqren bərk başağrısı verir və ağrını götürmək üçün heç bir dərman kömək etmir. Həmin vaxt sinirə botoks vurulur. Botoks oradakı vəziyyəti dondurur. Bunu mütəmadi istifadə etdikcə ağrılar daha əvvəlki kimi şiddətli olmur".



Keyfiyyətli avadanlıqla lazer epilyasiyasının dəriyə heç bir ziyan vermədiyini bildirən həkim-dermatovenerоloq, dərinin tez qocalmaması üçün tövsiyələrini diqqətə çatdırıb: "Dərini tez qocaldan, sıradan çıxaran səbəblər zamanla su mübadiləsinin azalması, kallogen sintezinin zəifləməsidir. Cənubi Qafqaz günəşli yerdir. Deyilən saatlarda Günəşdən qorunmalıyıq. Dəriyə qulluq düzgün olmalıdır. Kosmetik vasitələr yaşa, dəriyə, orqanizmə uyğun olaraq seçilməlidir. Qida rasionumuza, yuxu rejimimizə fikir verməliyik. Bütün bunlar dəriyə birbaşa təsir edən vacib faktorlarıdır".

E.Novruzov dermatologiya sahəsində özünümüalicə hallarının o biri sahələrlə müqayisədə daha çox yayıldığını vurğulayıb: "Əgər dəridə qaşınma, qızarma və s. varsa, dərhal qonum-qonşuyla, tanış-bilişlə məsləhətləşirlər. Kim nə məlhəm çəkibsə, ondan çəkirlər. Nəticədə problemi aradan qaldıra bilməyib, klinik mənzərəni dəyişirlər. Ondan sonra vəziyyətin pisləşdiyini görüb həkimə müraciət edirlər. Çox pisdir ki, aptekdə satıcılar xəstələrə məsləhət verirlər. Xəstələr də həkimə getmək əvəzinə, onlara qulaq asırlar. Bu da mənfi nəticələrə gətirib çıxarır. Sonradan peşman olmamaq üçün bu sahənin peşəkarına müraciət etmək lazımdır".



**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyəsi ilə hər il iyulun 8-i bütün dünyada allergiya ilə mübarizə günü kimi qeyd olunur. Bu günün keçirilməsi ilə bağlı ilk dəfə 2005-ci ildə allergiya və immunopatologiya üzrə ümumdünya təşkilatları qərar qəbul edib.**

# XXI əsrin xəstəliyi - allergiya

## Yer kürəsinin 40%-ə qədər əhalisi müxtəlif allergenlərdən əziyyət çəkir

«Allergiya» anlayışı tibbi terminologiyada 1906-cı ildə meydana gəlib və onun müəllifi avstriyalı pediatr Klemens Fon Pirke hesab edilir. Lakin bu problemin özü daha qədim tarixə malikdir. Hələ qədim Misir dövründə hazırda allergiyanın klinik əlamətləri kimi nəzərdən keçirilən simptomlar təsvir olunub. Ancaq təbabət bu xəstəliyi yalnız 19-cu əsrdə - sənayenin intensiv şəkildə inkişaf etdiyi və bununla əlaqədar olaraq ətraf mühitin çirklənməsi dövründə öyrənməyə başlayıb, təbiətdə isə bu vəziyyətin təzahürləri yalnız 20-ci əsrin sonunda tədqiq edilib.

Allergiya - canlı orqanizmin müəyyən maddəyə və ya maddələrə (allergenlərə) qarşı yüksək həssaslıq vəziyyətidir ki, bu vəziyyət həmin maddələrin təkrar təsirləri zamanı inkişaf edir. Allergiyanın fizioloji mexanizmi orqanizmdə əkscisimlərin əmələ gəlməsindən ibarət olub, onun həssaslığının yüksəlməsinə və ya artmasına gətirib çıxarır. Allergiya selikli qişaların güclü qıcıqlanması, dəri səpgiləri, ümumi halsızlıq və digər simptomlar şəklində təzahür edir.

Dünyada ekoloji tarazlıq nə qədər çox pozulursa, allergiya da bir o qədər geniş miqyasda yayılır. Allergiya indi dünyada çox geniş yayılmış xəstəliklərdən biri sayılır. ÜST-ün məlumatına əsasən, Yer kürəsinin 40%-ə qədər əhalisi bu vəziyyətdən əziyyət çəkir. Bu rəqəm daim artdığından, böyüklər və uşaqlar arasında allergik xəstəliklərin durmadan yüksəlməsi qeydə alınır. Meqapolislərdə bu xoşagəlməz xəstəliyə 30%-dən 60%-ə qədər əhali məruz qalır. ÜST-ün proqnozlarına əsasən, XXI əsr allergiya əsri olacaq.

O da həyəcan doğurur ki, allergiya bir sıra xroniki xəstəliklərin səbəbi sayılır (məsələn, bronxial astma) və onlar hazırda ciddi tibbi-sosial və iqtisadi problem təşkil edirlər. Allergiyanın tez-tez rast gəlinən təzahürləri arasında rinit, dermatit, bronxial astma mühüm yer tutur. Ən geniş yayılmış allergenlər bunlardır: bitkilərin tozcuqları, qida məhsulları, məişət tozunun gənələri, kif, məişətdə işlədilən kimyəvi maddələr, dərmanlar, heyvanların epitel qişaları, yunu, dəri kəpəkləri və s.



Son 30 il ərzində allergik xəstəliklər, o cümlədən bronxial astma bütün dünyada çox sürətlə yayılan xəstəliklərdən olub. Bu zaman onların artması həm böyüklər arasında, həm də uşaqlar arasında qeydə alınır. Hazırda Avropa ölkələrində hər 3-cü uşaq allergiyadan, hər 10-cu uşaq isə bronxial astmadan əziyyət çəkir. Onu xüsusi qeyd etmək lazımdır ki, Rusiyada hər üçüncü böyük yaşlı sakin və hər 4-cü uşaq allergik xəstəliklərə mübtəladır və onların tezliyi durmadan artır.

Çox təəssüf ki, insanların əksəriyyəti bu xəstəliyə etinasız münasibət bəsləyir və ona elə də böyük əhəmiyyət vermirlər. Çoxları hətta xəstə olduğunu bilmir və allergiyanın simptomlarını digər xəstəliklərin simptomları kimi qəbul edirlər. Bəzən insanlar məhz xəstəliyin simptomları, müalicə üsulları və metodlarını bilməməsi üzündən əziyyət çəkirlər. Təkcə əhali arasında deyil, həm də tibb işçiləri arasında lazımi dərəcədə məlumatlılığın olmaması və bu problem barədə informasiya kasadlığı ona gətirib çıxarır ki, düzgün aparılmayan və vaxtında başlanmayan müalicə ciddi və bəzən həyat üçün təhlükəli vəziyyətlərin ortaya çıxmasına səbəb olur.

Ümumdünya Allergiya ilə Mübarizə Gününün məqsədi əhalinin geniş təbəqələri arasında bu xəstəlik barədə biliklərin yayılmasına nail olmaq, onun ciddi qəbul edilməsinin, profilaktik və müalicə-diaqnostik tədbirlərin vacibliyini hər kəsin nəzərinə çatdırmaqdır. Bundan başqa, müvafiq dövlət orqanları, tibb sahəsində çalışan mütəxəssislər və səhiyyə təşkilatçılarının diqqətinin bu problemə cəlb edilməsi də zəruri sayılır.

**Tahirə PƏNAHOVA**
*Pediatr-allerqoloq, II Uşaq xəstəlikləri kafedrasının dosenti*

# “Həyat” teatr klubu məşq otağı ilə təmin olunub

**Bu günlərdə Azərbaycan Tibb Universitetinin “Təbib” Tədris İdman Sağlamlıq Mərkəzinin binasında “Həyat” teatr klubunun yeni otağı istifadəyə verilib. Tədbirdə ATU Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Qoşqar İsmayılov və “Təbib”in sədri Qələndər Aslanov iştirak ediblər.**



Q.İsmayılov bildirib ki, ATU rəhbərliyi başda rektor, professor Gəray Gəraybəyli olmaqla, tələbələrimizin asudə vaxtının səmərəli keçirilməsinə böyük diqqət yetirir. THİK-in nəzdində bir çox klublar fəaliyyət göstərir, onlardan biri də yaradıcı gənclərdən ibarət olan “Həyat” teatr klubudur. Yeni məkanda tələbə-aktyorlarımızın məşğələləri keçiriləcək, kiçik tamaşalar təqdim ediləcək. Görülən işlər klubun fəaliyyətini daha da genişləndirəcək.

Açılışdan sonra teatr klubunun sədri Dilbər Rahim məlumat verib ki, Müalicə-profilaktika fakültəsinin tələbəsi İlahə Əliyeva tanınmış fransız dramaturqu Jan Koktonun “İnsan səsi” monopyesini təqdim edəcək. İstedadlı tələbəmizin çıxışı böyük maraqla qarşılanıb.

# Qocalmanın qarşısını almaq olmasa da, onu ləngitmək mümkündür

**İnsanın qocalması digər canlıların qocalması kimi, orqanizmin tədricən və hissəvi deqradasiyası sayılan bioloji prosesdir. Digər canlıların qocalmasından fərqli olaraq, insanın əqli qabiliyyətinin itirilməsi yaşam keyfiyyətini əhəmiyyətli dərəcədə pozur. İnsan hər hansı yaşda qocalmır və ya ahıllaşmır. Cəmiyyət üçün qocalmanı sosial və iqtisadi faktorlara görə dəyərləndirmək olar.**



Bir sıra alimlər hesab edir ki, qocalıq xəstəliklərin və ağır sindromların rəsmi siyahısına daxil edilməlidir. Qocalma - inkişaf etmiş ölkələrdə ölümün əsas səbəbi kimi qəbul olunub.

Qocalma prosesini Herontologiya elmi tədqiq edir. Bu elm nəinki fizioloji dəyişiklikləri, eləcə də yaşlı şəxslərin cəmiyyətdə rolunu və yerini öyrənir. Herontologiyanın məqsədi qocalma prosesinin səbəblərini öyrənmək və onlarla mübarizəni, başqa sözlə desək, cavanlaşma mənbələrini axtarmaqdır.

Yaş artdıqca insan bədənində gedən fizioloji dəyişikliklər ilk növbədə metobolik stressə qarşı bioloji funksiyaların zəifləməsi ilə özünü büruzə verir. Bu dəyişikliklər adətən insanın psixologiyası və davranışında da özünü əks etdirir. Qocalmanın bioloji aspektləri insanın ümumi vəziyyətinin pisləşməsi ilə müşayiət olunur. Yaşlandıqca insan xəstəliklərə qarşı mübarizədə daha aciz olur. Bu həm immun sistemin effektivliyinin zəifləməsi, həm də xroniki xəstəliklərin toplanması nəticəsində orqanizmin mübarizə gücünün azalması ilə izah olunur. Çünki gənc orqanizmin pnevmoniya xəstəliyindən daha tez sağalmasını müşahidə etdiyimiz halda, yaşlı və zəif insanda bu xəstəlik ölümlə nəticələnə bilir.

Qocalmanın 7 əsas səbəbi göstərilir. Bunlara genomun zədələnməsi, epigenetik faktor, telomerin qısalması, zülal denaturasiyası, mitoxondrilərin disfunksiyası, hüceyrə qocalması və sütun hüceyrələrin tükənməsi aiddir.

Qocalmanın qarşısını almaq olmasa da, onu ləngitmək və gecikdirmək mümkündür. İltihab, şəkər, stress və turşuluğun artmış səviyyəsi cavanlığın düşmənidir. Bu faktorlar hüceyrə, toxuma və orqanların zəifləməsi, zədələnməsi və tükənməsinə səbəb olur.

Qocalmanı ləngitmək və daha uzun müddət gənc və sağlam qala bilmək üçün həyat tərzinə, o cümlədən qidalanmaya, stressin idarə olunmasına, defisitdə olan vitamin və mikroelementlərin balanslaşdırılmasına, fiziki aktivliyin və yuxu rejiminin düzgün və rasional korreksiyasına çalışmaq lazımdır.

**Maral DADAŞOVA,**
*Fizioterapiya və tibbi reabilitasiya kafedrasının assistenti*

**Tibbi və bioloji fizika kafedrasının professoru Fikrət İsayevin ömür təqvimində 90 il tamam olur. Taleyini fizika elminin inkişafına həsr edən Fikrət Kamal oğlu İsayev 1934-cü il iyulun 20-də Şamaxı rayonunun Dilman kəndində (indiki Ağsu rayonu ərazisi) müəllim ailəsində anadan olub.**

# Gözəl pedaqoq, məhsuldar alim, prinsipial təşkilatçı



1956-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fizika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirən F.İsayev 1959-cu ilədək Azərbaycan SSR Elmlər Akademiyasının Fizika institutunun aspirantı və həmin institutun Fiziki optika laboratoriyasının kiçik elmi işçisi olub. 1964-cü ildə Bakı Dövlət Universitetində dissertasiya müdafiə edərək, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi alıb və 1964-69-cu illərdə Fizika İnstitutunun baş elmi işçisi işləyib.

1969-cu ildən 2020-ci ilədək Azərbaycan Tibb Universitetinin Tibbi fizika və informatika kafedrasının dosenti və professoru vəzifəsində çalışıb. Fikrət müəllim mühazirə və praktik dərslərində tələbələrə tətbiqi biofizikanın həkimə lazım olan tərəflərini aşılamaqla yanaşı, ümumi fizika, elektronika, dozimetriyanın tibdə tətbiq edilən fiziki tədqiqat üsulları, xəstəliklərin diaqnoz və müalicə metodları, habelə uyğun cihazlar və qurğuların quruluşu və iş prinsipini də öyrədib.

Kollektivdə özünə və ətrafına tələbkarlığı ilə seçilən Fikrət müəllim həm gözəl pedaqoq və məhsuldar alim, həm də prinsipial və təşkilatçı əməkdaş olaraq tanınıb.

Professor F.İsayev pedaqoji fəaliyyətlə yanası, elmi fəaliyyətlə də (1975-1985-ci illərdə Moskvada Tətbiqi Fizika İnstitutunda və onun Bakı filialında) məşğul olub. Bu işlərin nəticəsi olaraq, 1985-ci ildə Leninqrad Politexnik İnstitutunun İxtisaslaşdırılmış və Joffe adına Yarımkeçiricilər İnstitutunun birgə elmi şurasında fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsini müvəffəqiyyətlə müdafiə edib.

Professorun elmi rəhbərliyi ilə 7 nəfər elmlər namizədi, 2 nəfər fizika üzrə fəlsəfə doktoru və 3 nəfər elmlər doktoru yetişib. O həm də AMEA Radiasiya Problemləri İnstitutunun nəzdində doktorluq və namizədlik dissertasiyalarının müdafiəsi üzrə İxtisaslaşdırılmış Elmi Şuranın üzvü olub. 6 monoqrafiya, 5 dərslik, 2 metodiki vəsaitin müəllifidir. Onun 71-i xarici mətbuatda olmaqla, 171 elmi əsəri dərc edilib.

Azərbaycanda tibb təhsilinin və elminin inkişafındakı xidmətlərinə görə professor Fikrət İsayevə 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən Əməkdar müəllim fəxri adı verilib.

Ölkəmizdə yüksək ixtisaslı həkim kadrların yetiştirilməsində mühüm rolu olan Fikrət müəllimi yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, ona uzun ömür, can sağlığı arzulayırıq.

**Tibbi və bioloji fizika kafedrasının əməkdaşları**

# Tanınmış stomatoloq-alim dünyasını dəyişib

**Respublika stomatoloji cəmiyyətinə və tibb ictimaiyyətinə ağır itki üz verib. Azərbaycan Tibb Universitetinin Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının professoru, tibb elmləri doktoru Yunis Yusubov vəfat edib.**

Yunis Əmiraslan oğlu Yusubov 10 fevral 1942-ci ildə Gədəbəy rayonunun Zəhmət kəndində anadan olub. O 1964-cü ildə Azərbaycan Tibb İnstitutunu bitirib, 1972-ci ildə Kiyev Həkimləri Təkmilləşdirmə İnstitutunun Cərrahi stomatologiya kafedrasina aspiranturaya qəbul olunub, 1975-ci ildə tibb elmləri namizədi dissertasiyasını müdafiə edib. Sonra Kiyev Tibb İnstitutunun Cərrahi stomatologiya kafedrasinda assistent vəzifəsində işləyib. 1988-ci ildə Kiyevdə doktorluq dissertasiyasını müdafiə etdikdən sonra, 1989-cu ildə müsabiqə yolu ilə Azərbaycan Tibb İnstitutunun Cərrahi stomatologiya kafedrasina professor vəzifəsinə seçilib.

Tədris prosesi ilə yanaşı yüksək səviyyəli əməliyyatlara imza atan professor həm də böyük elmi potensiala malik idi. İşlədiyi illər ərzində onun rəhbərliyi altında 7 nəfər tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsi alıb.

Professor Y.Yusubov 300-dən çox elmi işin, o cümlədən 2 dərsliyin, 3 kitabın, 20 ixtiranın, 17 metodik tövsiyənin müəllifidir. 2005-ci ildə ilk dəfə Azərbaycan dilində üz-çənə cərrahiyyəsi üzrə dərslik çap etdirib.

O bir çox beynəlxalq konfranslarda məruzələr etmiş, Beynəlxalq, Avropa və Azərbaycan Üz-Çənə Cərrahları cəmiyyətlərinin, Azərbaycan Stomatoloji Assosiasiya Şurasının üzvü və Cərrahi stomatologiya bölməsinin rəhbəri olmuşdur. Üz-çənə cərrahiyyəsində bir sıra yeni orijinal cərrahi üsulları bu gün də təcrübədə geniş tətbiq olunur.



Professor Yunis Yusubovun əziz xatirəsi tibb ictimaiyyətinin, stomatoloqların və kafedramızın əməkdaşlarının qəlbində əbədi olaraq yaşayacaq.

**Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının əməkdaşları**

## Allah rəhmət eləsin!

Terapevtik stomatologiya və Ortodontiya kafedralarının əməkdaşları
**professor**
**Zöhrab Qarayevin**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Ortopedik stomatologiya, Xarici dillər, Terapevtik stomatologiya və Ortodontiya kafedralarının əməkdaşları Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının professoru
**Yunis Yusubovun**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bioloji kimya kafedrasının əməkdaşları kafedranın əməkdaşı, dosent Aqil Orucova və Terapevtik stomatologiya kafedrasının assisenti Əhməd Orucova əzizləri
**Ramiz Orucovun**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının əməkdaşları kafedranın baş laborantı Samirə Əliyevaya anası
**Səkinə xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İctimai fənlər kafedrasının əməkdaşları kafedranın baş laborantı S.Məmmədovaya anası
**Fəridə Məmmədovanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Tədris Cərrahiyyə Klinikasının əməkdaşları klinikanın təsərrüfat işləri üzrə müdir muavini Rüfət Əliyevə anası
**Xanım Əliyevanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## Etibarsız sayılır

Stomatologiya fakültəsinin məzunu Aghapour Ghadiminezhad Amirata Esmaeilə 11.10.2022-ci il tarixdə verilmiş diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

“Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun “Təbib” nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0013
Sayı 800